

*Tural ADIŞİRİN*

# *Vətəni qorumağa yollanan gənc oğullar*

Vətəni qorumağa yollanan gənc oğullar,
Bayraqlara bürünüb qayıdırlar geriyə.
Çiçəklərdən çox kövrək, quzudan dinc oğullar,
Çiyinlərdə dönürlər bir də üzü bəriyə.

Bilmək olmur dünyanın arzusu, həvəsi nə?,
Bəzən haray yerinə ölü sükutlar gəlir.
Analar yol gözləyir eh oğul əvəzinə
Anaların üstünə qara tabutlar gəlir.

Hər bəd əməl tarixən qan ləkəli bir günah,
Quzğunlar dayanıbdır insanlığın qəsdinə.
Tabutmu böyüdürmüş analar görən, Allah?
Qara tabutlar gəlir anaların üstünə.

***

Bu torpaq gözümdə nurlanan ocaq,
Bu torpaq sinəmdə çarpan ürəkdir.
Donmuş əllərimi lap uzaq başı
Bircə təbəssümü göyərdəcəkdir.

Heç vaxt tək qalmayıb, tək olmayıbdır,
Düşmənin köksünə dəyib oxumuz.
Bizim çiynimizdə yük olmayıbdır,
Niyə bəs çiynində yükük çoxumuz.

Ürək bir arzudur, yollarda itən,
Ürək heç kiriyən, susan deyilmiş.
Hələ indi-indi bilirəm,Vətən,
Sənə oğul olmaq asan deyilmiş.

Gah duman qovmuşam, gah çən yolundan,
Küləyəm, şimşəyəm, qayayam, daşam.
Bütün ömrüm boyu Vətən yolunda
Birinci ölməyi arzulamışam.

Ədalət.- 2020.- 13 oktyabr. S. 6.